*Bizim ən böyük vəzifəmiz Azərbaycanda dövlət müstəqilliyini qorumaq, saxlamaq, möhkəmləndirmək, inkişaf etdirmək və onu əbədi etməkdən ibarətdir. Hər bir vətəndaş bunu qiymətləndirərək Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün öz töhfəsini verməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 1 iyun 2016-cı il № 41 (2056) Qiyməti 25 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

# Ordumuzun döyüş qabiliyyəti, maddi-texniki təminatı yüksək səviyyədədir



***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 28 May - Respublika Günü ilə əlaqədar keçirilən dövlət tədbirində yenə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarından, ordu quruculuğunda qazanılan uğurlardan danışıb.***

“Əlbəttə, xarici siyasətimizin və nəinki xarici siyasətimizin, ümumiyyətlə, siyasətimizin əsas məsələsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Mən bu məsələ ilə bağlı dəfələrlə fikirlərimi bildirmişəm. Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və xalq da bu mövqeyi dəstəkləyir, bəyənir. Bu münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Erməni silahlı qüvvələrinin torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir, status-kvo dəyişdirilməlidir.”

- Biz dəfələrlə demişik ki, bu, mümkün deyil, - deyə dövlət başçısı xalqın səbrinin tükəndiyini bildirib. - Biz artıq 20 ildən çoxdur ki, gözləyirik. Vasitəçilər həmişə bizə gözləyin, sülh yolu ilə həll edin, deyirlər. Son vaxtlar bunu daha da tez-tez təkrarlayırlar. Biz də istəyirik ki, sülh yolu ilə həll olunsun. Kim istəyər ki, müharibə başlasın?! Amma biz istəyirik ki, həll olunsun. Burada Ermənistan ilə Azərbaycan arasında fərq məhz bundadır. Ermənistan istəyir ki, sülh yolu ilə həll olunsun, amma bunun həllini əngəlləyir, ortaya süni əngəllər qoyur. Qabaqcadan qəbuledilməz şərtlər qoyur ki, biz bunu qəbul etməyək və beləliklə, danışıqlar onilliklər ərzində belə davam etsin. Konstruktiv mövqe nümayiş etdiririk ki, bu məsələ həll olunsun, torpaqlarımız işğaldan azad edilsin, Azərbaycan köçkünləri öz dədə-baba torpaqlarına qayıda bilsinlər. Bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Bir daha demək istəyirəm, nə Azərbaycan xalqı, nə Azərbaycan dövləti heç vaxt imkan verə bilməz ki, tarixi torpaqlarımızda ikinci erməni dövləti yaradılsın. Biz buna heç vaxt imkan verməyəcəyik.

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan dünya miqyasında multikulturalizm, dini, milli tolerantlıq baxımından nümunəvi bir ölkədir. “Sadəcə olaraq Ermənistanın siyasi rəhbərliyi, millətçi qruplar, Azərbaycana daim nifrətlə yanaşan insanlar bütün bu müsbət meyilləri pozmaq, üzərindən xətt çəkmək istəyirlər. Ərazi bütövlüyümüz danışıqlar mövzusu deyil və hesab edirəm ki, Vyana görüşü uğurlu görüş idi. Biz gözləyirik ki, tezliklə, vaxt itirmədən çox ciddi, vasitəçilərin dedikləri kimi substantiv, yəni, mənalı danışıqlar başlasın.”

Ölkə rəhbəri yenə də birmənalı şəkildə qeyd edib ki, biz gələcəkdə də hərbi gücümüzü artırmalıyıq və artırırıq. “Neçə ildir ki, ordu quruculuğu prosesi uğurla gedir. Ordumuzun döyüş qabiliyyəti, maddi-texniki təminatı yüksək səviyyədədir. Ən müasir silahlar, texnikalar gətirilir, eyni zamanda, Azərbaycanda istehsal olunur. Azərbaycanda artıq mindən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. Bu gün Azərbaycan Ordusu dünyanın aparıcı orduları sırasındadır. Mən bunu dəfələrlə demişəm. Aprel ayında Ermənistanın törətdiyi təxribat, Azərbaycan Ordusunun əks-hücum əməliyyatı bunu həm Ermənistana, həm bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu güclü ordular sırasındadır. Biz gələcəkdə bu istiqamətdə əlavə tədbirlər görəcəyik və artıq müvafiq göstərişlər verilib. Mən onları açıqlamaq istəmirəm. Maddi-texniki təminat baxımından və əlavə müasir avadanlıq alınması üçün lazımi tədbirlər görülür. Azərbaycan xalqı əmin olsun ki, bu məsələ daim diqqət mərkəzindədir. Biz öz gücümüzü bilirik, öz gücümüzdən istifadə etmirik, sadəcə olaraq təxribatlara layiqli cavabımızı vermişik, veririk, lazım gələrsə, verəcəyik və çalışacağıq ki, bu məsələ tezliklə və sülh yolu ilə həll edilsin.”

**AZƏRTAC-ın materialları əsasında**



Haqq zəfərimizin ünvanı - Lələtəpə

3-cü səhifədə



“Vətən, sənin əsgərinəm!..”

4-cü səhifədə



İgidi şücaəti yaşadır

6-cı səhifədə



Gələcəyimiz vətənpərvər gəncliyə etibar olunub

7-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

# Azərbaycanın Müdafiə naziri İspaniya Kralı ilə görüşüb

***Mayın 28-i İspaniyada Silahlı Qüvvələr Günüdür. Bu münasibətlə təşkil olunmuş təntənəli paradı İspaniya Kralı VI Felipe, Müdafiə naziri Pedro Morenes, daxili işlər naziri Xorxe Fernandes Dias və digər rəsmi şəxslərlə yanaşı, bu ölkədə rəsmi səfərdə olan Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov da izləyib.***



İspaniya ordusunun müxtəlif qoşun növlərinin iştirakı ilə keçirilən mərasimdən sonra Kral VI Felipe Müdafiə naziri Pedro Morenezin dəvəti ilə parada qatılan general-polkovnik Zakir Həsənovla görüşüb. Görüş zamanı nazir Zakir Həsənov Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin səmimi salamlarını Krala çatdırıb. Silahlı Qüvvələr Günü münasibətilə Krala təbriklərini çatdıran Müdafiə naziri İspaniyaya səfərindən məmnunluğunu ifadə edib, səfərin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlığını bildirib.

Azərbaycan xalqını 28 May -Respublika Günü münasibətilə təbrik edən və ona əmin-amanlıq arzulayan Kral VI Felipe öz növbəsində onun da salamlarını Azərbaycan Prezidenti İlham Əliyevə çatdırmağı xahiş edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan pilotları "Anadolu Qartalı - 2016" beynəlxalq təlimində iştirak edirlər

Türkiyə Respublikasının Konya şəhərində "Anadolu Qartalı - 2016" beynəlxalq təlimi keçirilir.

Mayın 30-dan başlayan təlimlərdə 7 ölkənin (Türkiyə, Azərbaycan, Avstraliya, Niderland, İtaliya, Pakistan və Səudiyyə Ərəbistanı) quru qoşunları, hərbi hava və hərbi dəniz qüvvələri bölmələri, o cümlədən NATO qərargahının nümayəndələri iştirak edir. Azərbaycan təlimlərdə Hərbi Hava Qüvvələrinin 3 pilotu ilə təmsil olunur.

Plana uyğun olaraq real müharibə şəraitinə yaxın təşkil edilən təlimdə iştirakçıların bilik və bacarıqlarının səviyyəsi yoxlanılacaq, eləcə də təcrübə mübadiləsi həyata keçiriləcəkdir.

Təlim iyunun 10-dək davam edəcək.

# Azərbaycan Respublikasının Müdafiə naziri "Efes - 2016" beynəlxalq təlimlərin İdarəetmə Mərkəzində olub



İzmir şəhərində keçirilən "Efes - 2016" beynəlxalq təlimlərinin yekun mərhələsində iştirak etmək üçün mayın 30-da Türkiyəyə səfər edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov Yüksək Səviyyəli müşahidəçilərlə birgə Təlim İdarəetmə Mərkəzi və Silah sərgisində olub.

* * *

İzmir şəhərində keçirilən "Efes - 2016" beynəlxalq təlimlərinin yekun mərhələsi "Doğanbey" poliqonunda baş tutub.

Yüksək səviyyəli qonaqlar qismində təlimləri izləmək üçün Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan poliqona gəlib.

Sonra Türkiyə Respublikasının Quru Qoşunları komandanı ordu generalı Salih Zeki Çolak təlim haqqında qısa məlumatla çıxış edib.



Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov yüksək səviyyəli müşahidəçilərlə birgə təlimi izləyib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***31 may 2016-cı il.*** Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 33 dəfə pozub.

Tərtər rayonunun Göyarx, Çiləburt, Ağdam rayonunun Cəvahirli, Qaraqaşlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Silahlı Qüvvələrin Baş Qərargah rəisi Əfqanıstanın Təhlükəsizlik Şurasının katibi ilə görüşüb



***Mayın 30-da Azərbaycan Respublikasının Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov ölkəmizdə səfərdə olan Əfqanıstan İslam Respublikası Təhlükəsizlik Şurasının katibi cənab Mohammad Xanif Atmarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Qonaqları salamlayan Baş Qərargah rəisi Azərbaycanla Əfqanıstan arasında münasibətlərin inkişaf etməsində iki ölkə rəhbərinin mühüm rol oynadığını, hərbi sahədə də əlaqələrin uğurla davam etdiyini və geniş imkanlara malik olduğunu bildirib.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik N.Sadıkov Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində son zamanlar yaranan gərginlik və atəşkəsin pozulması səbəbləri barədə ətraflı məlumat verib.

Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən qonaq öz növbəsində Azərbaycan və Əfqanıstanın hər zaman beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiklərini xüsusi qeyd edərək müxtəlif sahələrdə Əfqanıstana göstərilən köməyə, eləcə də sülhyaratma missiyasına Azərbaycan hərbçilərinin verdiyi töhfəyə görə minnətdarlığını ifadə edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto Natiq İSAYEVİNDİR**

Ön xətdən reportaj

# Haqq zəfərimizin ünvanı - Lələtəpə

*Bu dəfə yolumuz qüdrətli Azərbaycan Ordusunun vətənsevər əsgər və zabitlərinin yüksək döyüş hazırlığı, fədakarlığı sayəsində erməni işğalçılarından azad olunmuş ərazilərimizdən birinə - Lələtəpəyədir.*



...Görünən boz təpələri müqəddəs Vətən torpağının zərrəsi sayıram. Qarabağ bölgəsindəyəm, bağ, bağça, çöl, çəmən zümrüd libasa bürünüb. Barlı-bərəkətli taxıl zəmiləri göz oxşayır. Sevimli şairimiz Mikayıl Müşfiq demişkən, bu yaz başqa bir yazdı... Ordumuzun zəfər sədaları şəhidlərimizin ruhunu oxşayan Çanaqqala şəhidlərinin şerqisiylə qarışıb bu yaz... Bu yaz qələbə soraqlı könüllərin, doğrulan ümidlərin, çiçək açan arzuların baharı oldu. Bu yaz heç zaman Qarabağ itkisiylə barışmayan, ürəyi Vətənə sonsuz məhəbbətlə çırpınan oğulların qisas baharı kimi yaddaşlara köçdü...

Biz səhər erkən hərbi hissənin ərazisinə daxil olanda şəxsi heyət günün nizam qaydalarına uyğun olaraq xidmət aparırdı. Onlar idman qurğularında fiziki hazırlıqlarını artırır və sıra təlimi keçirdilər. Zabit Nemət Məmmədov burada yaradılan yüksək şəraitlə bizi tanış edir. Əslində, bu hərbi hissə hər gəlişimizdə yenilikləri ilə diqqətimizi çəkir. Müasir yeməkxana, yataqxana, hamam-camaşırxana və tibb məntəqəsi şəxsi heyətin ixtiyarındadır. Ərazidə yaşıllıq zolaqları salınıb və müxtəlif gül kolları əkilib. Bir sözlə, hər yanda təmizlik, səliqə-sahmandır.

Həmsöhbətim ordumuzun aprel döyüşlərindən zəfərlə çıxan vətənpərvər zabitlərdəndir. O, düşmənin silahlı təxribatlarının qarşısının alınmasında göstərdiyi rəşadətə görə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin imzaladığı sərəncama əsasən "İgidliyə görə" medalı ilə təltif edilib. Əslən Qərbi Azərbaycanın Göyçə mahalının Cıvıxlı kəndindən olan zabitimiz erməni işğalçılarının təxribatlarına qarşı ordumuzun keçirdiyi əks-həmlə əməliyyatlarından fəxrlə danışır:

- Həmin günlərdə döyüş bacarığımız idmançıların dili ilə desək, - düşməni "nakaut" vəziyyətinə salmışdı. Hər birimizi düşündürən bircə məqam ancaq irəli atılıb, torpaqlarımızı işğaldan qurtarmaq idi. Şükürlər olsun ki, bəzi istiqamətlərdə mühüm əhəmiyyətli yüksəkliklər düşməndən geri alındı. Bu döyüşlərdə andına sadiq qalan oğullar Vətən uğrunda canlarından keçdilər. Allah şəhidlərimizə rəhmət eləsin. Ali Baş Komandanın bir əmri bizə kifayətdir ki, onların qisasını alıb torpaqlarımızı geri qaytaraq. Bu gün düşmənlə təmas xəttindəki mövqelərimiz daha da möhkəmlənib və ərazi bütünlüklə ordumuzun nəzarətindədir. Düşmən silahlı təxribatlara əl atarsa, yenə də sarsıdıcı zərbələr alacaq.

Ön xəttə getmək üçün bizi hərbi hissənin zabiti Taleh Balabəyov müşayiət edir.

Yola düşürük, havadan ılıq yaz nəfəsi duyulur. Uzaqdan kənd sakinlərinin öz şəxsi təsərrüfatlarında çalışdığını görmək olur. Camaat gündəlik qayğıları ilə məşğuldur. Maşın torpaq yolla dərələri, təpələri keçərək ön xəttə doğru istiqamət alır.

Təcrübəli zabit T.Balabəyov yolboyu söhbətində bildirdi ki, aprel döyüşlərində sakinlər, keçmiş döyüşçülər ön xəttə gələrək onlara da silah verilməsini və döyüşlərdə iştirak etməyi xahiş edirdilər. Döyüşlər başladığı gündən camaat gecə-gündüz orduya dəstək nümayiş etdirdi. Xalqın öz ordusunun yanında olması cəmiyyətimizdə də böyük ruh yüksəkliyi yaratdı.

Barıt qoxulu səngərə daxil oluruq. Budur, 2 ay öncə ordumuzun qəhrəman döyüşçülərinin azad etdiyi Lələtəpə yüksəkliyində - Vətən torpağındayıq. İllərdir erməni işğalçılarının zəbt etdiyi bu ərazilərə artıq Silahlı Qüvvələrimiz tam nəzarət edir. Öyrənirik ki, burada müdafiə istehkam qurğuları daha da möhkəmləndirilib və gecə-gündüz ayıq-sayıq səngərdə döyüş növbəsi aparan hərbçilərimiz üçün müasir məişət şəraiti yaradılıb. Burada rabitə və tibb xidmətinin də yüksək səviyyədə qurulduğunu görürük.

Aprel döyüşlərinin qələbə sevincini xalqımıza yaşadan Vətən oğulları ilə söhbət aparırıq.

Döyüş təcrübəsi olan zabit Faiq Qasımov daim səngərdə şəxsi heyətin yanında olduğunu və son əməliyyatlarda iştirak etdiyini deyir. Qubadlı rayonunun Qayalı kəndində dünyaya göz açan Faiq doğma yurdunun həsrətilə yaşayır.

"Ordumuzun azad etdiyi əraziləri erməni təcavüzkarları yenidən işğal etməyə cəhd göstərsələr də, döyüşçülərimizin güclü müqaviməti nəticəsində böyük itki verərək geri çəkilməyə məcbur oldular. Torpaqlarımızı erməni vandallarından azad etməyənədək bu silahı yerə qoyan deyiləm. Şəhidlərimizin qisasını alacağıma söz vermişəm. Qardaşım Həsənqulu Qasımov (ləqəbi Həsən Qorxmaz) 1992-ci il dekabrın 10-da 23 yaşında Qubadlı uğrunda gedən döyüşlərdə şəhid olub. Xocalı hadisələrindən hiddətlənərək Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsilini yarımçıq qoyub ərazi bütövlüyümüz uğrunda döyüşlərə atılmışdı. Daşaltı, Şuşa, Laçın, Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak etmişdi. Qubadlı özünümüdafiə tabor unda əvvəlcə bölük komandiri, sonra isə tabor komandiri idi. 1994-cü ildə ulu öndər Heydər Əliyevin fərmanı ilə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilmişdi", - deyə Qarabağ veteranı zabit F.Qasımov bildirir. - 25 ildir ki, döyüş bölgəsindəyəm. Azərbaycanın Milli Qəhrəmanı Əliyar Əliyevin tələbəsi olmuşuq. Eyni zamanda onun ilk əsgərlərindənəm. Hər iki övladımı doğma Qubadlıya - ata-baba yurduna bağlı vətənpərvər ruhda böyütmüşəm. Onlar da Qubadlının coğrafiyasını əzbərdən bilirlər. İnanıram ki, biz öz torpaqlarımıza qayıdacağıq.



Söhbətimizi aprel döyüşlərində əsgəri şücaət göstərdiyinə görə Ali Baş Komandan İlham Əliyevin sərəncamına əsasən "İgidliyə görə" medalına layiq görülən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Teymur Əliyevlə davam etdirirəm. Öyrənirəm ki, atası, ehtiyatda olan polis mayoru Mübariz Əliyev də Dağlıq Qarabağ hadisələri başlandığı ilk gündən Laçın, Zəngilan, Füzuli, Cəbrayıl və Qubadlı uğrunda gedən döyüşlərdə iştirak edib. Manqa komandiri də bildirir ki, erməni cəlladlarının ayağı torpaqlarımızdan kəsilməyincə silahını yerə qoymayacaq.



2015-ci ildə Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsini bitirdiyini deyən tibb xidməti leytenantı Elnur Əliyev də Lələtəpə yüksəkliyi uğrunda gedən ağır, qanlı döyüşlərin ilk gününü xatırlayır: "Komanda verilən kimi ilk yaralıları qəbul etdik. Onların təcili təxliyyəsi təmin olundu. Qürurverici anlardan biri də yaralı döyüşçülərimizin ilk tibbi yardımdan sonra ön xəttə qayıdıb yenidən döyüşlərini davam etdirmələri idi. Yaralıların vaxtında hospitala çatdırılmasında sürücü, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Rasif İbişovun da fəallığını deməliyəm."

Füzuli rayonunun Kərimbəyli kəndində doğulan Rasif İbişov 2 ildir ki, ön xətdə xidmət edir.

- Ermənilər işğal etdikləri torpaqlarımızdan tezliklə çıxmalıdırlar. Çünki ata-baba yurdundan didərgin düşən soydaşlarımız neçə illərdir torpaq həsrəti çəkirlər, - deyir Rasif.

Motoatıcı taqımın komandiri leytenant Qəzənfər Dünyamalıyev də Lələtəpə uğrunda gedən döyüş əməliyyatlarında xidməti vəzifəsini layiqincə yerinə yetirib. O, aprel döyüşlərində əsgərləri ilə birlikdə müdafiə-istehkam işlərinin görülməsində və silah-sursatın daşınmasında xüsusi fəallıq göstərib. Taqımın şəxsi heyəti Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən qiymətli hədiyyələrlə təltif edilib. 1994-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Oğlanqala kəndində doğulan gənc zabit Q.Dünyamalıyev bizimlə söhbətində hələ kiçik yaşlarından hərbə maraq göstərdiyini deyir. O, əvvəlcə Heydər Əliyev adına Hərbi Liseyi bitirib. Sonra isə motoatıcı ixtisası üzrə ali hərbi təhsilə yiyələnib.

Rabitəçi leytenant Pərviz Məmmədov isə deyir ki, dayanıqlı, keyfiyyətli, etibarlı rabitə döyüş aparan bölmələrin qələbəsini təmin edir. "Bölmələr arasında fasiləsiz əlaqənin qurulması rabitənin əsas vəzifəsidir. Rabitə hava kimidir, kəsiləndə o dəqiqə hiss edirsən. Xidmətə başladığım ilk gündən ərazinin relyefini hərtərəfli öyrənməyə başladım. Bunlar rabitə xidmətinin uğurlu aparılmasını şərtləndirən amillərdəndir. Həqiqətən də, aprel döyüşləri təsdiq etdi ki, ordumuzun ön xətdə rabitə sistemi möhkəm, dayanıqlı, fasiləsizdir. Bizim rabitə xidməti də hər an, hər dəqiqə döyüş tapşırıqlarını layiqincə yerinə yetirməyə hazırdır."

Atıcı əsgərlərdən Gündüz Səfərov da döyüşlərdə komandirlərinin tapşırıqlarını layiqincə yerinə yetirdiyinə görə fəxri fərmanla təltif edilib.

- Qəhrəman Azərbaycan əsgəri düşmənə sarsıdıcı zərbələr endirməklə düşmənə öz əzmini bir daha göstərdi, - deyə əsgər G.Səfərov söhbətinə davam edir. - Erməni əsgərləri ancaq qaçmaqla canlarını qurtardılar. Biz isə sona qədər döyüşüb komandirlərimizin əmrlərini yerinə yetirirdik. Şəhid olan yoldaşlarımızın qisasını düşməndə qoymayacağıq.

Əsgərlərdən İmran Paşayev, Alim Sultanov, Adəm Babazadə, Fərrux Cabbarov, Yaqub Quliyev, Tural Cəlilov, Tural Ağayarov, Elmir Əliyev və başqalarının da Lələtəpə uğrunda gedən döyüşlərdə göstərdiyi şücaət və hərbi anda sadiqlik nümunəsi ordumuzun zəfər tarixinin yeni bir səhifəsidir.

...Lələtəpə yüksəkliyindən müqəddəs bir hiss, bir duyğu ilə ayrılıram: Lələtəpədə gözləyən zəfər bizi Şuşaya çağırır...

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**M.MÖHBALIYEVİNDİR**

# Torpaqlarımızı işğaldan azad edəcəyik!



***Qazaxın mərd oğulları həmişə yurda, el-obaya dayaq olublar. Ölkəmizə qarşı düşmən hücumları başlayandan bu bölgə işğalçılardan fədakarlıqla qorunub. Ehtiyatda olan zabit Mustafa Rasimoğlu bildirir ki, Vətənin keşiyində dayanan gənclər ata-babalarımızın qəhrəmanlıq yolunu ləyaqətlə davam etdirirlər. "Son illər ordumuzun gücləndirilməsi istiqamətində həyata keçirilən islahatlar bizi hədsiz sevindirir. Bu il aprelin əvvəllərində düşmən təxribatının qarşısının alınmasında göstərilən rəşadət xalqımızın orduya inam hissini daha da artırdı. Sübut olundu ki, xalqımız və ordumuz torpaqların işğalda qalmasına yol verməyəcək, ərazi bütövlüyümüzü bərpa edəcəkdir."***

Zabitlə qısa söhbətimi başa çatdırıb "N" hərbi hissəsinə yollandım. Elmar Zeynalabdinovu təcrübəli, vətənpərvər zabit kimi xeyli vaxtdır ki, tanıyıram. Şəxsi heyətin yüksək döyüş hazırlığına malik olduğunu deyən zabit bildirir ki, Müdafiə Nazirliyinin təsdiq etdiyi plana əsasən, hərbi qulluqçularımız öhdələrinə düşən vəzifələri fədakarlıqla yerinə yetirirlər.

Ön xətdə bacarıqlı bölmə komandiri olan Anar Rüstəmov Xaçmaz rayonundandır. Hələ orta məktəb illərindən hərbi həyata maraq göstərib. Zabit peşəsini bütün peşələrdən üstün seçib. Müxtəlif hərbi vəzifələrdə xidmət edib. Həmişə göstərilən etimadı doğruldan Anarın xidmətləri fəxri fərmanlara, mükafatlara, medallara layiq görülüb. Söhbətimizdə mayor Anar Rüstəmov deyir:

- Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev və ordu rəhbərliyi tərəfindən göstərilən yüksək diqqət və qayğı şəxsi heyətimizin döyüş əzmini daha da artırıb, hər bir kəsdə Vətənə, torpağa sədaqət hissini, qələbə ruhunu yüksəldib.

Çox da uzaq olmayan ərazilərə baxırıq. Ön tərəfdə düşmən səngərləri görünür. Ara-sıra atəş səsləri eşidilsə də, nisbi sakitlikdir. Düşmən tərəf ciddi nəzarət altında saxlanılır. Müşahidə məntəqəsində döyüş növbətçiliyi çəkən əsgərlərin ayıq-sayıqlığı ilə düşmənin bütün hərəkətləri dəqiqliklə izlənilir. Əməliyyat şəraitində hər hansı dəyişkənlik baş verərsə, dərhal komandanlığa məlumat ötürülür və müvafiq tədbirlər görülür.



Baş leytenant Şakir Abdıyevin komandirlik etdiyi şəxsi heyət də döyüş tapşırıqlarını sədaqətlə yerinə yetirir. Bölük komandirinin dediyinə görə, Vətənin keşiyində dayanan igidlərin hər biri Milli Qəhrəmanlarımızı özlərinin idealı sayırlar. "Aprel döyüşlərində qazanılan qələbə əsgərlərimizin inamını daha da gücləndirib. Onlar Vətənimizin ərazi bütövlüyü uğrunda mübarizəyə atılmağa hazır olduqlarını bildirirlər."

Bölükdə xidmət edən gənc zabit İbrahim Cəfərov ulu öndər Heydər Əliyevin adını daşıyan hərbi təhsil ocağının yetirməsidir. Leytenant ordumuzun sıralarında olmağından qürur duyduğunu, səngər həyatı yaşayan oğullarla birgə Vətənin keşiyində mətinliklə dayandığını bildirir. Gizir Qalib Qasımov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Eldəniz Quliyev, Məzahir Məmmədov və başqaları da torpaqlarımızı göz bəbəyi kimi qoruyurlar. Onların ən başlıca məqsədi düşməni torpaqlarımızdan qovub çıxarmaqdır.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# "Vətən, sənin əsgərinəm!.."

***Bu mövqelərə getdiyimi dəqiq xatırlamasam da, yerlər mənə həmişə doğma olub. 1993-cü ilin payızı və 1994-cü ilin qışında Ağdərədə güclü döyüşlər gedirdi. Həmin vaxt biz orada döyüşürdük. Döyüşdə komandirimiz "Azərbaycan Bayrağı" ordenli zabit Abakar Mirzəyev idi. Onun rəhbərliyi altında uğurlu döyüş əməliyyatı həyata keçirdik.***



Bu döyüşdə Ələmdar Rzayev, Namiq Məmmədov, Vasif Səfərov, Aydın Hümbətov (sonralar bu döyüşçülər də "Azərbaycan Bayrağı"ordeni ilə təltif olundular) və başqa oğullarımız fədakarlıq göstərdilər. Düşmənin işğal etdiyi əraziləri azad etmək üçün dağları, meşələri keçib hakim yüksəklikləri ermənilərdən təmizlədik. Dekabrın sonunda Madagiz kəndi düşməndən tam azad edildi. Erməni quldurlarının əsas ehtiyatı da burada yerləşirdi. O zaman düşmənə bu yerdə sarsıdıcı zərbə vurmuşduq. Ermənilər xeyli silah-sursat, ərzaq və əşyaları qoyub qaçmışdılar.

Atəşkəsdən sonra bu mövqelərdə zabit kimi xidmətimi davam etdirdim. Aprel döyüşlərində azad edilən yüksəkliklərdən ermənilər postlarımızı və Tapqaraqoyunlu kəndini atəşə məruz qoyurdu. Artıq o təhlükəli günlər arxada qalıb.

Azad edilən yüksəkliyi ziyarət edəndə bir hadisə yadıma düşdü. 1992-ci ilin yaz aylarında da bu yerlərdə güclü döyüşlər gedirdi. Həmin vaxt taborumuzda kursant kimi tanıdığım Azərbaycanın Milli Qəhrəmanı Kərim Kərimov qəhrəmancasına döyüşərək şəhid olmuşdu. O zaman ermənilər postların qarşısına dirəklər basdırıb, tikanlı məftildən "sərhəd" də çəkmişdilər. Düşmən bununla işğal etdiyi ərazilərin onlara qalacağını düşünürdü. İndi isə bu "sərhəd" darmadağın edilib, mövqelərimiz isə xeyli qabağa çəkilib. Zəbt etdikləri Azərbaycan torpağında onlar heç vaxt rahatlıq tapa bilməzlər. Aprel döyüşlərində əsl qəhrəmanlıq göstərmiş kapitan Mirdamət Bağıyevlə Vətən oğullarının mövqelərinə gəlirəm. Döyüşçülər xidmətlərini ayıq-sayıq aparırlar.

- Düşmən indi də snayperlərə üstünlük verir, - dedi Mirdamət. - Hər addımda ehtiyatlı olmağı və düşmənə yeni zərbələr endirməyi düşünürük.

Burada döyüş yolu keçmiş zabitlərdən Taleh Kərimovla da görüşürəm. O sonuncu döyüşlərdə əsgərlərimizin şücaətlərindən danışdı. Dedi ki, həmin vaxt düşmən son dərəcə güclü müdafiə olunmuşdu. "Düşmənə səngərdən baş qaldırmağa macal vermədik. Bir neçə istiqamətdən atəş açıb postlarını aldıq. Ermənilər əks-hücumlar təşkil etsələr də, onları irəliləməyə qoymadıq. Düşmənin bütün cəhdləri puç oldu."

Düşmən zaman-zaman bəd niyyətlərini bu yolla həyata keçirib. Ancaq bu dəfə qarşılarında güclü və məğlubedilməz Azərbaycan əsgərini gördülər. Silahlı Qüvvələrimizin cəbhə xəttindəki bölmələri yüksək döyüş bacarığı nümayiş etdirərək düşmənə öz sözünü dedi.

Döyüşlərin fəal iştirakçısı olmuş baş leytenant Azad Əliyev isə söhbətimizdə deyir ki, düşmən itkilərinin heyfini almağa cəhd göstərir, bu məqsədlə teztez atəşkəsi pozur. "Bunu döyüşçülərimiz yaxşı bilir və heç vaxt düşmənin növbəti təxribatlarına imkan verməyəcəyik", - deyə baş leytenant bildirdi.

Aprel döyüşlərində yaralanmış leytenant Allahyar Telmanlı ilə görüşürəm. Zabit də yaralandığı döyüşdən və fədakar əsgərlərindən söhbət etdi.

Bayaqdan bizi maraqla dinləyən qarayanız orta yaşlı baş gizir özünü təqdim edir. - Baş gizir Vüqar Hümbətov. - On beş ildən artıqdır ki, bu hərbi hissədə xidmət edirəm, bu yerlərin hər cığırına yaxşı bələdəm.

Qarşımızda qürurverici mənzərə - düşmən tapdağından azad edilən yüksəkliklər dayanıb. Orada ordumuzun mətin döyüşçüləri ayıq-sayıq döyüş növbəsi çəkirlər. Onlar işğal altındakı digər ərazilərimizi də azad etmək üçün döyüşə hər an hazırdırlar.

Döyüşçülərimizin baxışlarından bu sözləri oxuyuram: Vətən, sənin əsgərinəm!..

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Müstəqil dövlətçiliyimiz ən mühüm sərvətimizdir

Azərbaycan xalqının tarixində ən əlamətdar hadisələrdən biri 28 May - Respublika Günüdür. Məhz 1918-ci ilin bu günlərində ölkəmizdə "İstiqlal Bəyannaməsi"nin qəbul edilməsi ilə Şərqdə ilk demokratik dövlətin - Azərbaycan Xalq Cümhuriyyətinin əsası qoyulub. Doğrudur, o vaxt müstəqil dövlətçiliyimizin ömrü çox qısa olub, yəni Azərbaycan cəmi 23 ay müddətində müstəqil dövlət kimi fəaliyyət göstərib. Buna baxmayaraq xalqımız qısa zaman məsafəsində dövlətçiliyinin əsaslarını yaratmağa, beynəlxalq aləmdə tanınmağa imkan tapıb.

Azərbaycanın bir müstəqil dövlət kimi mövcudluğu üçün bir çox tarixi şəxsiyyətlərə borcluyuq və bu gün də onların adı tariximizdə yaşayır. Məmmədəmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Həsən bəy Ağayev, Nəsib bəy Yusifbəyli, Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski kimi görkəmli dövlət və hərb xadimləri ilk müstəqil dövlətimizin qurucuları olublar.

1920-ci ilin aprelində bolşeviklərin siyasi hakimiyyəti əldə etməsi ilə Azərbaycanda müstəqilliyə son qoyuldu və xalqımız yenidən imperiya əsarətində yaşamağa məhkum edildi. Amma azadlıq ideyaları heç zaman tərəqqipərvər xalqın yaddaşından silinmədi və tarixi imkan yaranan kimi bu ideyalar həqiqətə çevrildi. Düz 70 ildən sonra, yəni 20-ci əsrin 90-cı illərində Sovetlər imperiyasının süquta uğraması nəticəsində Azərbaycan yenidən dövlət müstəqilliyini bərpa edə bildi. Amma qeyd etmək lazımdır ki, bu dəfə müstəqil dövlətçiliyimizin yaranması çox mürəkkəb bir tarixi şəraitdə baş verdi. Gənc müstəqil dövlət öz iqtisadi əsaslarını yaratmağa macal tapmadan xarici və daxili müdaxilələrlə üzləşdi. Güclü havadarlarına arxalanan qonşu Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və digər sərhəd rayonlarının hərbi təcavüzə məruz qalması müstəqilliyimizi təhlükə qarşısında qoydu. Digər bir tərəfdən ilk müstəqillik dövründə hakimiyyətin naşı, təsadüfi rəhbərlər tərəfindən idarə olunması da, əslində, dövlətçiliyimizə böyük zərbə vururdu. Artıq ölkədə siyasi böhran son həddə çatmışdı və dövlət müstəqilliyinin itirilməsi üçün real təhlükələr yaranmışdı. Məhz belə bir vaxtda Azərbaycan xalqı çox düzgün tarixi seçimə imza atdı - böyük tarixi şəxsiyyət, dünya şöhrətli dövlət xadimi Heydər Əliyevə üz tutdu.

Dahi şəxsiyyət Azərbaycana rəhbərlik etdiyi müxtəlif tarixi mərhələlərdə ölkəmizin və millətimizin müqəddəratı naminə mühüm islahatlara imza atdı, müstəqil dövlətçilik strategiyasını işləyib hazırladı. 30 ildən artıq bir dövrdə ulu öndərin rəhbərliyi ilə qazanılan bütün uğurların nəticəsi olaraq, bu gün də Azərbaycan müstəqil dövlət kimi beynəlxalq aləmdə kifayət qədər nüfuz sahibidir. Xalqımız tam haqlı olaraq uzaqgörən dövlət xadiminin ölkəmizə rəhbərlik etdiyi illəri "Azərbaycan tarixinin Heydər Əliyev dövrü" kimi yüksək dəyərləndirir, daim dahi rəhbəri böyük hörmət və ehtiramla xatırlayır. Ulu öndərin nəsillərə örnək olan mənalı həyat yolu və müdrik dövlətçilik fəaliyyəti doğma xalqına xidmətdən, öz millətinin xoşbəxt gələcəyinə hesablanmış məqsədyönlü mübarizədən ibarətdir.

Məhz ulu öndərimiz Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin "olum, ya ölüm" dilemması qarşısında qaldığı bir vaxtda doğma xalqı qarşısında xilaskarlıq missiyasını uğurla yerinə yetirdi. 1993-cü ildə onun siyasi hakimiyyətə qayıdışı ilə müstəqilliyimizin itirilməsi və ölkəmizin parçalanması təhlükəsi birdəfəlik aradan qaldırıldı, Azərbaycanda uzunmüddətli ictimai-siyasi sabitlik və əmin-amanlıq təmin edildi. Bununla da müdrik rəhbər çevik siyasi-iqtisadi və hərbi islahatlara başladı, xüsusən də ölkənin iqtisadi təməlini yaradan məqsədyönlü iqtisadi inkişaf strategiyasını işləyib hazırladı. 1994-cü ilin sentyabrında ümummilli liderimizin rəhbərliyi və təşkilatçılığı ilə "Əsrin müqaviləsi" adlanan neft kontraktı imzalanmaqla ölkəmizdə möhtəşəm neft strategiyasının əsası qoyuldu. Bundan sonra "İpək Yolu"nun bərpasına başlanıldı ki, bu mühüm layihənin həyata keçirilməsindən sonra xarici investisiyaların ölkəmizə axını sürətləndi. Əslində, böyük rəhbərin uzaqgörənliyi və müdrikliyi ilə gerçəkləşən bu layihələr Azərbaycanın beynəlxalq aləmdə rolunu artırmaqla müasir qüdrətli iqtisadi potensiala malik bir dövlətin bünövrəsini qoydu.

Sonrakı dövrdə dahi rəhbərimizin təşkilatçılığı ilə hüquqi və demokratik dövlət quruculuğu istiqamətində mühüm addımlar atıldı, milli dövlətçilik ənənələrinə əsaslanan köklü hüquqi islahatlara meydan verildi. Müəllifi ulu öndər Heydər Əliyev olan ilk milli Konstitusiyamızın qəbul edilməsi, çoxpartiyalılıq prinsipi əsasında demokratik seçki təcrübəsinin formalaşdırılması qısa bir vaxtda Azərbaycanda vətəndaş cəmiyyətinin qurulması ilə nəticələndi.

Danılmaz həqiqətdir ki, hər bir güclü dövlətin dayağı onun ordusudur, hərbi gücə malik olmayan ölkə heç zaman müstəqil siyasət yürütməyə qadir ola bilməz. Məhz bu nöqteyi-nəzərdən müdrik dövlət xadimi Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə ordu quruculuğunun elmi əsaslarla inkişaf etdirilməsinə ciddi fikir verib. Hələ Sovetlər birliyi dövründə respublikamızda gənc nəslin hərbə marağının formalaşmasında dahi rəhbərin xidmətləri böyük olub. Bir faktı xüsusi qeyd edim ki, 1971-ci ildə Bakıda indiki C.Naxçıvanski adına Hərbi Liseyin yaradılması ilə respublikamızda milli hərbi təhsil ənənəsinin əsası qoyulub. Bu məktəbin məzunu olan yüzlərlə vətənpərvər zabit neçə illər sonra müstəqil Azərbaycanda ordu quruculuğu işinə dəyərli töhfəsini verdi. Əlbəttə ki, ulu öndər bu təhsil ocağını yaratmaqla haçansa xalqımızın müstəqilliyə qovuşacağını böyük uzaqgörənliklə düşünmüşdü.

Qətiyyətli sərkərdə olan ümummilli liderimizin bünövrəsini qoyduğu ordu quruculuğu strategiyası hazırkı dövrdə onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla həyata keçirlir. Artıq beynəlxalq səviyyədə ölkəmizin hərbi qüdrəti etiraf olunur və son aprel zəfərimiz də ordumuzun yüksək döyüş hazırlığına malik olduğunu nümayiş etdirdi. Bir sıra mühüm əhəmiyyətli yüksəkliklər işğaldan azad edilib və o zirvələrdə üçrəngli bayrağımız qürurla dalğalanır. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun qeyd etdiyi kimi, Vətənə, dövlətə və xalqa xidməti ömrünün mənası bilən Silahlı Qüvvələrin şəxsi heyəti yüksək döyüş ruhunu məhz aprel hadisələrində yenidən sübuta yetirdi.

Azərbaycan xalqı xoşbəxtdir ki, yeni demokratik və qüdrətli dövlət yaratmağı qarşısına məqsəd qoymuş ulu öndərimizin siyasi kursu bizi böyük gələcəyə aparan yoldur və bu yolun hazırda Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən davam etdirilməsi bir daha onu göstərir ki, müdrik rəhbərin ideyaları yaşayır və yaşayacaqdır. Ümummilli liderimizin özünün də qeyd etdiyi kimi, nə qədər ki müstəqil Azərbaycan yaşayır, Heydər Əliyevin adı ürəklərdə olacaqdır.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Respublika Günü təntənə ilə qeyd edilib



Silahlı Qüvvələrimizin bütün hərbi hissə və bölmələrində olduğu ki, cəbhə bölgəsindəki artilleriya qüvvələrinə məxsus "N" hərbi hissəsinin şəxsi heyəti də 28 May - Respublika Gününü böyük təntənə ilə qeyd edib. Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, təşkil olunan bayram tədbiri Dövlət himninin səsləndirilməsi ilə başlanıb.

Polkovnik Vüqar Məmmədov tədbiri giriş sözü ilə açaraq hərbi qulluqçuları və mərasimə qonaq gəlmiş ictimaiyyət nümayəndələrini, əsgərlərin doğmalarını xalqımızın dövlətçilik tarixində mühüm yer tutan əlamətdar hadisə - Respublika Günü münasibətilə təbrik edib. Çıxışına davam edən zabit ötən əsrin əvvəllərində müstəqil dövlətçiliyimizin yaradılmasından, bu tarixi prosesdə xidmətləri olmuş məşhur dövlət və hərb xadimlərindən söhbət açıb. Natiq qeyd edib ki, 1918-ci ildə qazanılan tarixi müstəqilliyimizin ömrü çox qısa olmasına baxmayaraq, dövlətçilik ənənələrimizin formalaşması baxımından mühüm əhəmiyyətə malikdir. "Azərbaycan ikinci dəfə, yəni 20-ci əsrin 90-cı illərində müstəqilliyini bərpa etmək imkanı qazananda yenə də respublikamızda mövcud tarixi şərait çox ağır və mürəkkəb idi. Belə bir vaxtda ümummilli liderimiz Heydər Əliyev xalqın arzu və tələbi ilə siyasi hakimiyyətə qayıtdı, dövlətçiliyimizin qorunub saxlanmasında onun misilsiz xidmətləri oldu. Müasir müstəqil dövlətçiliyimizin yaradıcısı olan dahi rəhbərin önəm verdiyi əsas məsələlərdən biri də Silahlı Qüvvələrimizin formalaşdırılması idi."

Zabit çıxışına davam edərək qeyd edib ki, dahi rəhbər tərəfindən bünövrəsi qoyulmuş dövlətçilik və ordu quruculuğu strategiyası hazırkı dövrdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Komandiri olduğu hərbi bölmənin son aprel döyüşlərində qazandığı uğurlardan da danışan natiq müasir dövrdə Azərbaycan Ordusunun yüksək hərbi hazırlığını və artilleriyaçıların da daim Vətənimizin ərazi bütövlüyü uğrunda haqq savaşına hazır olduqlarını xüsusi qeyd edib.



Hərbi qulluqçulardan Zahid Qafarov, Nurlan Babayev, Xəyyam Şükürov, Ramin Əhmədov və başqaları da çıxışlarında Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etməyə hazır olduqlarını bildiriblər.

Komandanlığın əmri ilə xidmətdə fərqlənənlər təltif ediliblər.

Sonda Laçın rayon Mədəniyyət Evinin musiqi kollektivi əsgərlər üçün maraqlı konsert proqramı təqdim edib.



* * *

Respublika Günü Hərbi Dəniz Qüvvələrində də böyük ruh yüksəkliyi ilə qeyd edildi. Zabitlərə, matroslara bu günün tarixi əhəmiyyəti haqqında əhatəli məlumatlar çatdırıldı, dövlətçilik tariximizdə yeri xatırladıldı. Hərbçilər 28 may gününün tarixi əhəmiyyətini öz nümunəvi xidmətləri ilə qoruyacaqlarını əmin etdilər.

Təntənəli tədbir Səbail rayonundakı 50, Xətai rayonundakı 221 saylı orta məktəblərin şagird kollektivləri ilə birgə keçirildi. Yeniyetmələr belə bir bayramı hərbçilərin əhatəsində, onlarla birlikdə keçirdiklərindən məmnun oldular.

Tədbirdə hərbi xidmətdə fərqlənən hərbi qulluqçular təltif edildilər.

Sonda H.Aslanov adına Mərkəzi Zabitlər Evinin solistlərinin iştirakı ilə geniş konsert proqramı təqdim olundu.

**"Azərbaycan Ordusu"**



*Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlıq və igidliyə görə hərbçilərimizin xüsusi fərqlənən bir qrupu 2016-cı il aprelin 19-da Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə yüksək fəxri ada layiq görülüb, orden və medallarla təltif olunub. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Ordusunun mayoru Samid Gülağa oğlu İmanova da Azərbaycanın Milli Qəhrəmanı (ölümündən sonra) adı verilib.*

*Milli Qəhrəmanlarımız*

# İgidi şücaəti yaşadır

Bu dəfə doğma rayonum Neftçalaya tam fərqli hisslərlə gedirəm. Sanki başımı həmişəkindən daha dik tutmuşam. Yol boyu gördüyüm canlı-cansız hər şey mənə çox qürurlu görünür.

İlk öncə Vətənə olan sədaqət və sevgisini öz canından üstün tutmuş və bu yolda şəhid olmuş qəhrəman hərbçimizin məzarını ziyarət etdim. Əzəmətlə dalğalanan üçrəngli bayrağımızın altında gül-çiçəyə bürünərək cənnət ətri verən məzarını, başdaşında şəhidin gülümsəyən məğrur simasını seyr edərkən, sinədaşında əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin qəhrəmana həsr etdiyi şeirin misralarını oxuyarkən o qədər qarışıq, izaholunmaz hisslər keçirdim ki... Vətən torpağının hər qarışını canından əziz bilən Milli Qəhrəman mayor Samid İmanovun müqəddəs ruhu qarşısında baş əyərək qürur duydum.

İnsan qəlbinin ən böyük nəğməsi Vətən nəğməsidir. Sonsuz ənginliklərə, doğma torpağa dikilmiş bütün gözlər, hələ beşikdəki körpələrin qəlbləri də ancaq bu nəğməni zümzümə edir. Onun hər kəlməsi Vətən, hər notu torpaq sevgisi ilə yoğrulmuş əzəli və əbədi bir musiqidir. Erkən yaşlarından müharibənin dəhşətlərini görüb yaşayan insanların ürəkləri isə bu nəğməni qisas yanğısı, döyüş harayı, Koroğlu nərəsi, Babəkin qılınc zərbəsi ilə oxuyur.

Mayor İmanov Samid Gülağa oğlu 1981-ci ildə Neftçala rayonunun Həsənabad kəndində dünyaya göz açmışdı. 1998-ci ildə rayonun 1 saylı orta məktəbini bitirərək həmin il indiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdu. 2003-cü ildə isə hərbi təhsil ocağını fərqlənmə diplomu ilə bitirmişdi. Həmin vaxtdan Silahlı Qüvvələrimizin döyüş təyinatlı hərbi hissələrindən birində xidmətə başlamış, qısa müddətdə müxtəlif zabit vəzifələrinə irəli çəkilmişdi.

Samid İmanov göstərdiyi xüsusi fədakarlıqlara görə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edilərək mükafatlandırılmışdı. Mayorun başçılıq etdiyi dəstə onun yüksək komandirlik bacarığı sayəsində daim döyüş hazırlığındakı uğurları ilə seçilirdi.

Aprelin 2-dən 5-dək qoşunların təmas xəttində Ermənistan silahlı birləşmələri tərəfindən törədilən silahlı təxribatların qarşısı alınarkən Tərtər istiqamətindəki yüksəklik uğrunda atışmada yaralanan cəsur komandir döyüş meydanından çıxarılmasına etiraz edir və başqa yaralı silahdaşının xilas edilməsi əmrini verir.

Cəsur komandir son nəfəsinədək mübarizə apararaq həlak olur. Vətən uğrunda şəhidlik zirvəsinə yüksəlir.

## Sadə ömür - şərəfli ölüm sahibi

Şəhidin ailəsi ilə görüşüb yazımın qəhrəmanı haqqında xatirələri dinləmək üçün doğmalarının yaşadığı ünvana üz tuturam. Ailə üzvləri belə bir igidi itirdikləri üçün üzgün olsalar da, onun Vətən sevgisi, torpaqlarımızın azadlığı uğrunda canından keçməsi ilə fəxr duyurlar. Gülağa dayı oğlu haqqında danışanda başını dik tuturdu.

- Samid indi sadəcə mənim deyil, bütün Azərbaycanın övladıdır, - deyir. - Daşıdığı Samid adının mənasını həyatda doğruldaraq ən yüksək zirvəyə ucaldı. O özünün uğurlarına, göstərdiyi fədakarlıqlara görə heç vaxt öyünməzdi. Adətən dost-tanışları Samiddən fərəhlə danışardılar. Mən isə sadəcə dinləyərdim. Evə gəlib anasına danışardım, özündən soruşanda isə gülümsünərdi. "Ay ata, nə fərqi var hansı vəzifədəyəm, Vətənimə xidmət edirəm". Şöhrətpərəst deyildi. Əksinə, müvəffəqiyyətləri artdıqca özünü daha da sadə aparır, hamı ilə mehriban, səmimi davranırdı.

Qəhrəmanın atası söhbət əsnasında Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən səmimi qəbul edildiklərini və buna görə dərin minnətdarlığını da bildirdi.

Söhbətin bu yerində Xuraman ana "balam, hər şeyin ən sadəsini sevirdi, amma ölümün ən şərəflisini seçdi", - deyir. "Nəvəm bu il fevralın 12-də anadan olub. Buna görə onlarda qalırdım. Son gedişindən üç gün əvvəl divanda oturub söhbət edirdik. Başını dizimin üstünə qoydu. Saçlarını, kürəyini tumarladım. Oğlumun qoxusunu, bədəninin istiliyini hələ də əllərimdə hiss edirəm". Ana göz yaşlarında boğulur...

Samidin böyük bacısı Aybəniz isə gözlərini qardaşının divardan asılmış şəklinə dikərək sakit-səssiz oturmuşdu. Gözlərinin dərinliyində qardaş itkisinin ağrı-acısına qarışmış bir məğrurluq duyulurdu. Baxışlarımın ona dikildiyini hiss edəndə isə qardaşı haqqında bu kəlmələri dedi:

- Samidin çox gözəl aurası var idi. O gələndə sanki özü ilə insanın ruhunu dinləndirən



rahatlıq, bir dünya xoşbəxtlik gətirirdi. İşi ilə əlaqədar tez-tez görüşə bilməsək də, hər gün telefon əlaqəsi saxlayardıq. O daim həyatında, xidmətində fərqli işlərilə seçilirdi. Qardaşım ölümü ilə də seçildi. Şəhid olmaq, bütöv bir xalq tərəfindən qürurla anılmaq hər kəsə nəsib olmur.

- Samid davamlı olaraq təlimlərdə olurdu, - deyir Gülbəniz. - Sonuncu dəfə də təlimə getdiyini söylədi. Martın 31-i axşam yuxumda Samidin hələ yığışmadığı hərbi şəhərcikdəki mənzilini od-alov içində gördüm. Səhəri gün əlaqə saxladım. Sonuncu dəfə elə aprelin 1-də danışdıq. Körpələrinin şəklini də göndərmişdi mənə. Aprelin 2-də cəbhə bölgəsində baş verənləri eşitdikdən sonra telefonuna zəng etdim. Zəng çatmırdı. Hər zaman deyərdi ki, insan bu həyata bir dəfə gəlir, gərək elə yaşayasan ki, gedəndə də şərəflə gedəsən.

Qəhrəmanın tabutu üzərindəki üçrəngli Dövlət bayrağı Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani tərəfindən əbədi xatirə kimi qardaşı Sadiqə təqdim olunub. Qardaş itkisindən yanıb-yaxılan Sadiq də içindəki qəhəri gizlədərək sakitcə söhbətə qoşulur.

- Vətən səngərdən başlayır, - deyir. - Qardaşım sübut etdi ki, tutduğu vəzifədən asılı olmayaraq hər bir Azərbaycan zabiti bu torpağın əsgəridir. Onlar xalqımıza həsrətində olduğumuz qələbə sevincini yaşadaraq, düşmənin yalançı məğlubedilməzliyini bir gecədə məhv etdilər. Mən qardaşımla fəxr edirəm. Samid qısa, amma şərəfli bir ömür yaşadı.

O, ailə üzvlərini bir-bir süzür. Baxışları balaca Turana dikilir. "Düşmən heç də sevinməsin. Turan böyüyüb onunla fəxr edəcək və damarlarında qanını daşıdığı qəhrəman atasına layiq oğul olacaq."

Şəhid bir ocağın ümüd işığı, bir elin qürur mənbəyi və bir dövlətin təməl sütunudur. Şəhidlər varsa, Vətən də var...

Tarix hər zaman qanla yazılıb. Vətən torpağı uğrunda nə canlar verilib. Bizi biz, Vətəni qibləgah etmək üçün. Bu gün bütün Azərbaycan xalqını bir amal birləşdirir: düşmən ayaqları altında od tutub yanan torpaqlarımızı azad edib, şəhidlərimizin qisasını almaq.

## "Atasının adına layiq övladlar böyüdəcəm"

İyunun 16-sı evliliklərinin üç ili tamam olacaqdı. Şəhidin həyat yoldaşı Badam xanım Samidin xaraktercə sakit, təmkinli olduğunu söyləyir. Əlbəttə, onu da dinləmək mənə çətin idi...

"Heç vaxt sirr verməzdi. Xasiyyətini bildiyim üçün artıq suallar verməzdim. Vaxtını daha çox hərbi hissədə keçirərdi. Xüsusən də bayramları əsgərləri ilə keçirməyi adət etmişdi. Albomunda əsgərləri ilə şəkilləri çoxdur. Daim deyərdi ki, hər şey yaxşı olacaq, torpaqları alacağıq. Düzdür, onu itirmək mənim üçün çox çətindir. Lakin hərbçi ilə ailə qurmağın nə demək olduğunu bilərək bu taleyi seçmişdim. Bu gün Samidimlə fəxr edirəm. Onun ruhunu həmişə özümdə hiss edirəm. Qəhrəmana layiq övladlar böyüdəcəyimə də onun ruhu qarşısında söz vermişəm."

2 yaşlı Fidanın heç nə olmamış kimi bir kənara çəkilib oynaması, 2 aylıq körpə qardaşı Turanın yanaqlarına sığal çəkməsi adamı sevindirdiyi qədər də kövrəldir. Fərqində deyil hələ, onun taleyindən yerini heç kimin, heç nəyin doldura bilməyəcəyi birisi "gedib". Heç vaxt qayıtmayacaq, qayıda bilməyəcək, boşluğu heç kim tərəfindən doldurula bilməyəcək biri...

Amma ağlı kəsəndə atası ilə fəxr edəcək, öyünəcək və başa düşəndə ki, qəhrəman atası ilə bütöv Azərbaycan xalqı fəxr edir, bax onda qüruru yerə-göyə sığmayacaq.

## "Əsl hərbçi belə olmalıdır"

Samid hərbi təhsil aldığı illərdə də hər kəsin hörmətini qazanmışdı. Kursantlar arasında adı ilk onluğa düşdüyünə görə dəfələrlə mükafatlandırılmışdı. Atasından eşitdim ki, vaxtilə buraxılış mərasimlərindən birində iştirak edən ulu öndər Heydər Əliyev cərgələrin arasını gəzərək kursantları bir-bir nəzərdən keçirir. Samidin qarşısında bir anlıq ayaq saxlayır. Kursantı başdan-ayağa süzən ümummilli lider əlini ona tuşlayaraq "əsl hərbçi belə olmalıdır" söyləyir. Daim Vətənimizin, xalqımızın gələcəyini düşünən ümummilli liderin zamanı qabaqlayan parlaq siyasi zəkası və uzaqgörənliyi bu yerdə də adamı heyrətə gətirir.

Mənə elə gəlir ki, Samid qəhrəmanlığı ilə bir daha ulu öndərin uzaqgörənliyini sübut etdi.

## Xatirələr

Belə deyim var: "Şəxsiyyətin ahəngdar inkişafı vəzifəsi, ilk növbədə, müəllimin üzərinə düşür". İnsanın həyatda düz yol seçməsində, kamilləşməsində, doğrudan da, müəllimin zəhməti böyükdür.

Milli Qəhrəmanın müəllimləri ilə görüşüb xatirələrini qələmə almaq üçün bir vaxt təhsil aldığı məktəbə yollanıram.

Şəhidin sinif rəhbəri Qasım Məmmədov artıq təqaüddədir. Amma Samidin dəfnindəki izdihamda və onun xatirəsinə təhsil ocağında keçirilən bütün tədbirlərdə iştirak edib. Qasım müəllim deyir ki, Samid hələ erkən çağlarında vətənpərvərliyi ilə həmyaşıdlarından seçilirdi. "Sadə, sözübütöv, hər şeyin yerini bilən şagird idi. Sonralar da hər dəfə rayona gələndə mənə baş çəkərdi..."

Məktəbin coğrafiya müəllimi, Qarabağ müharibəsi veteranı Hüseynağa Ağayevlə söhbət edirəm. Müəllim bildirir ki, ehtiyatda olan baş leytenantdır. "Samidgillə yaxın qonşu olduğumuzdan 1992-ci ildə Ağdam-Ağdərə özünümüdafiə taborunda Mərzilidə gedən döyüşlərdə iştirak etdiyimdən xəbərdar idi. Onunla dəfələrlə söhbətimiz olmuşdu. Hərb mövzusunda danışmağı, müzakirələr aparmağı sevərdi. Samid düşməndən qisas almaq arzusu ilə yaşayırdı. Dərsdə də zəbt olunmuş ərazilərimizin relyefi ilə yaxından maraqlanardı, "nə olursa-olsun, biz torpaqlarımızı geri qaytarmalıyıq" deyərdi.

Müəllimləri Həqiqət Məmmədova, Səkinə Əhmədova və başqaları da vətənpərvər şagirdləri ilə fəxr etdiklərini dilə gətirərək dedilər ki, Samid əsl insana xas olan keyfiyyətlərə, sadəliyə, təvazökarlığa, ən başlıcası isə vətənpərvərliyə malik idi.

Məktəbin idman müəllimi Rəşad Şahbazov isə Samidlə sinif yoldaşı olub. "Samid vətənpərvər oğul idi. Hərblə bağlı olan bütün tədbirlərdə öndə gedərdi. Məktəbi bitirdikdən sonra da öz istəyinin arxasınca getdi. Uşaq vaxtlarından çox sadə olduğundan biz onun uğurlarından xəbərsiz idik."

Sinif yoldaşları Əhdiman Əlizadə və Ramin Nəhmədov isə bildirirlər ki, zəngləşib imkan olanda görüşürdük. "Samid igid, cəsur, qorxubilməz oğul idi. Onda əsl zabit keyfiyyətləri vardı. Ürəyi Vətən eşqiylə döyünən hər bir Azərbaycan oğlunun ən böyük arzusudur şəhidlik zirvəsinə yüksəlmək. O bu gün bizim aramızda olmasa da, daim bizim yaddaşımızda, qəlbimizdə yaşayacaq, fəxrlə anılacaq."

Sadəlik, təvazökarlıq kainatın mayasındadır. Əslində, həyatda güclü olan hər şey sadədir. Sadə olan hər şey isə, güclüdür. Bu, həm də yüksəkliyə, ucalığa gedən bir yoldur. Samid də bu yolun yolçusu idi.

**Günay ƏDALƏTQIZI,**
**"Azərbaycan Ordusu"**

# Gələcəyimiz vətənpərvər gəncliyə etibar olunub

***"Təhsil millətin gələcəyidir" fikri bu gün cəmiyyətin fəaliyyət konsepsiyasına çevrilib. Ölkəmizdə son illər təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər onu deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı, inamlı və vətənpərvər görmək əzmindədir.***



Sabunçu rayonundakı 96 saylı tam orta məktəb şəhid məzun İlqar Əliyevin adını daşıyır. Burada şəhidin barelyefi qoyulub, xatirə guşəsi yaradılıb. Məktəbin direktoru Əminə Hüseynova 1980-ci ildən təhsil sahəsində çalışdığını bildirdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin "Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz" kəlamını daim xatırladığını söyləyən direktora görə, müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən təhsil islahatları sayəsində ölkəmizdə dünya standartlarına cavab verən təhsil sistemi formalaşıb. Baxmayaraq ki, ölkəmiz atəşkəs şəraitində yaşayır, təhsilə dövlət büdcəsindən çox böyük vəsait ayrılır, - deyir Əminə müəllimə.



- Məktəbimizin yeddi şəhid məzunu var, - o, söhbətinə davam edir. - Şəhidlik zirvəsinə ucalan məzunlarımız qürur yerimizdir. Təhsil ocağı Goranboy döyüşlərində şəhid olan məzunumuz İlqar Əliyevin adını daşıyır. Məktəbdə keçirilən tədbirlərə şəhidin yaxınları dəvət olunur. Hər il noyabrın 24-də şəhidin ad günü qeyd olunur və həmin gün birincilər Vətən uğrunda şəhid olanları heç vaxt unutmayacaqlarına və onlara layiq övlad olacaqlarına and içərək şagird birliyinə qəbul olunurlar. Belə tədbirlərin şagirdlərin vətənpərvər ruhda böyüməsinə böyük təsiri var. Şagirdlərimiz hər dərs gününə Dövlət himnimizi oxuyaraq başlayırlar.

Söhbətimizdən sonra məktəb daxilinə kiçik bir ekskursiyaya çıxırıq. Tədris üzrə direktor müavini Valeh Ağakişiyev bu işdə bizə köməklik edir. Təhsil ocağının dəhlizindəki stolun üstündəki balaca mücrünün üzərindəki "Əsgərə məktub" sözləri diqqətimi cəlb edir. Valeh müəllim diqqətlə baxdığımızı hiss edəndə bildirdi ki, bu artıq bir çox məktəblərdə ənənə halını alıb. "Şagirdlərimiz davamlı olaraq əsgərlərimizə məktublar yazırlar. Bu məktubları poçt vasitəsi ilə ön xətdəki əsgərlərimizə yola salırıq. Bunun həm şagirdlərimizin vətənpərvər ruhda böyüməsinə töhfə verəcəyini, həm də əsgərlərimizdə ruh yüksəkliyi yaradacağını düşünürük."

Məktublara nəzər yetirdikdə yuxarı sinif şagirdləri ilə yanaşı hətta birincilərin də imzaları məndə təbəssüm doğurur.

Birincilərin oxuduqları himni eşidərək, ilk öncə onlara baş çəkirik. Sinif rəhbəri Məhbubə Kazımova bir vaxtlar şəhid İlqar Əliyevə dərs deməsindən qürurla danışaraq bildirir ki, gələcəyimiz olan balacaların Vətənə məhəbbət, xalqa hörmət, milli ənənələrimizə sədaqət ruhunda tərbiyə olunmasına həmişə məsuliyyətlə yanaşırıq. "Vətənpərvərlik insanda fədakarlıq, qəhrəmanlıq və məğlubedilməzlik hissi yaradır. Biz də şagirdlərimizin layiqli vətəndaş kimi böyüməsi üçün əlimizdən gələni edirik."

Altıncı sinif şagirdlərinin ədəbiyyat dərsində iştirak edirik. Fənn müəlliməsi Sevda Sadıqova 1988-ci ildən pedaqoji fəaliyyətdədir. Müəllimə qeyd edir ki, vətənpərvərlik qəhrəmanlığın özəyidir. "Biz şagirdlərə Qarabağdan, soydaşlarımızın başına gətirilən faciələrdən müntəzəm söhbət açaraq, onları milli ruhda tərbiyə edirik."

- Dərsliklərimizdə də gənclərimizin vətənpərvər ruhda böyüməsinə təsir edəcək yetərincə vəsait var, - deyir Sevda müəllimə. - İnsan öz ölkəsi, Vətəni haqqında nə qədər çox məlumatlı olarsa, torpağını da bir o qədər sevərək onu qorumağı özünə borc bilər. Vətənpərvərlik mövzusunda və Milli Qəhrəmanlarımız haqqında inşa yazıların müsabiqəsini təşkil edirik.

Müəllimə həmin gün dərs mövzusu olan "Koroğlu" dastanı haqqında və vətənpərvərliklə bağlı suallar verəndə şagirdlərdən Kənan Behbudzadənin, Ayfər Rzayevanın, İbrahim Əliyevin, Aysel Əhmədovanın, Şəfa Namazovun, Elməddin Əliyevin və başqalarının ətraflı cavabları məndə xoş hisslər yaradır.

Fəal şagirdlərdən olan Kənan Behbudzadə atasının hərbçi olması ilə fəxr etdiyini, onda vətənpərvərlik hissləri oyatdığını və gələcəkdə Vətəninə layiq övlad olacağını söyləyərkən, Ayfər Rzayeva da Nigar, Həcər kimi qəhrəman sələflərinin igidliyini özünə nümunə seçdiyini bildirdi. Şəfa Namazov isə hərbçi olub torpaqlarımızın keşiyində dayanmaq arzuşunu bizimlə bölüşdü.

- Ölkəmizin tərəqqisi naminə vəzifə borcumuzu məsuliyyətlə yerinə yetirməli, böyüməkdə olan nəslin vətənpərvərlik tərbiyəsinə ciddi fikir verməliyik, - deyir Valeh müəllim. - Çünki müəllim ilk növbədə şəxsiyyət yetişdirir. Şagirdlərimiz düşməndən qisas almaq arzusu ilə yaşadıqlarından onları heç nə qorxutmur. Qürurlu, vətənpərvər gələcəyimiz yetişməkdədir.

Hər an müharibəyə hazır olan bir ölkənin zabiti olaraq mənim üçün gənc nəslin ordu həyatına hazırlanması hər saheden önəmlidir. Öyrənirəm ki, gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris etmək ehtiyatda olan zabit Aqil İsayevə həvalə olunub. Ordu həyatında təcrübəsi olan zabitlərin bu vəzifəyə cəlb olunması təqdirəlayiq bir haldır. Rayon üzrə "Şahinlər" və "Cəsurlar" hərbi idman yarışlarında məktəbin yetərli uğurları vardır. Ehtiyatda olan zabitə görə, ən ümdə vəzifə gənc nəsli erkən yaşlarından hərbi ruhda böyütməkdir. "Ordumuzun ən güclülər sırasında olmasından qürur duyuruq. Ali Baş Komandanın və Müdafiə nazirinin orduya olan diqqəti və qayğısı, şəxsən nazirin bayram günlərində səngərdə əsgərlərimizlə çörəyi paylaşması vətənpərvərlik baxımından çox dəyərli nümunədir."



Müəllim haqlıdır, ordu quruculuğunda qazanılan uğurlar, aprelin əvvəllərində cəbhə xəttində düşmənə qətiyyətli cavabımız, həmçinin dövlət rəhbərliyi tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə göstərilən yüksək qayğı böyüməkdə olan nəslin vətənpərvərlik ruhunu artırır, onlarda əsgəri həyata güclü maraq doğurur.

Gənclərin çağırışaqədərki hazırlıq sinfində lazım olan bütün zəruri vəsaitlər bu vacib fənnin müasir səviyyədə tədrisinə imkan yaradır. Hər dəfə şagirdlər müxtəlif silah və hərbi texnikalar haqqında məlumat öyrənirlər.

Şagirdlərlə söhbət edirəm. Vüqar Əmirov Milli Qəhrəman İlqar İsmayılovun yaxın qohumu olması ilə qürur duyduğunu söyləyir. Şahin Nəbiyev isə cüdo üzrə Azərbaycan çempionudur. Respublika və paytaxt birinciliklərində iştirak edən məktəbli idmançının ən böyük arzusu üçrəngli bayrağımızı ölkə xaricində yüksəklərə qaldırmaqdır. Mədinə Qulamova dayısının zabit olması ilə fəxr etdiyini və "Aslanın erkəyi dişisi olmaz" məsəlini söyləyərək gələcəkdə Vətəninə layiq bir şəxs olacağını bildirir. Fərid Müslümlü, Vüsal Nəbiyev, Sevinc Xəlilova, Anastasiya Məmmədova, Səmayə Səfərova da söhbətimizdə çox fəal idilər. Raim Məmmədov kinqboks üzrə beynəlxalq yarışların üçüncüsüdür. Öyrənirəm ki, əmisi birinci Qarabağ müharibəsində Ağdam döyüşlərində şəhid olub. Şəhid leytenantın adını daşıyan Raim gələcək həyatında əmisinə layiq olacağına söz verib. "Vətənə mən də bütün həyatımı, varlığımı borcluyam. Vətən uğrunda hər an canımı qurban verməyə hazıram. Bu, həm də sinif yoldaşlarımın fikridir."



Məktəblilərlə söhbətimdə daha çox xoşuma gələn cəhət onların gələcəkdə Vətənimizə, millətimizə layiqli övlad olmaq istəkləri idi...

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR**

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# Kursantlar bu dəfə intellekt mübarizəsində yarışıblar





Heydər Əliyev adına Hərbi Liseydə təhsil alan yeniyetmələrin Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması məqsədi ilə Naxçıvan şəhərindəki Gənclər Mərkəzində kursantlar arasında intellektual oyun keçirilib.

Açılış tədbirində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Nicat Babayev, Təhsil Nazirliyinin əməkdaşı Kamal Fərəcov, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev və başqaları çıxış edərək gələcəyin zabitlərinə uğurlar arzulayıblar.

Sonra intellekt mübarizəsinə start verilib. 8 komandanın iştirak etdiyi 2 mərhələdən ibarət yarışda ilk olaraq "Qartallar", "Sərkərdələr", "Əlincə" və "Savalan" komandaları, sonra "Mübariz", "Şəfəq", "Araz" və "Qala" komandaları yarışıblar.

Finalda isə "Sərkərdələr", "Mübariz", "Araz" və "Əlincə" komandaları güclərini sınayıblar. Yekun nəticələrə görə I yerə "Araz", II yerə "Sərkərdələr", III yerə isə "Mübariz" komandaları layiq görülüblər. Qaliblər təşkilatçıların fəxri fərman, diplom və kubokları ilə mükafatlandırılıblar.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

*Könlüm şeir istəyir*

# Döyüşdən şeirə, şeirdən qələbəyə

***Yaxşı şeirin ömrü birtərəflidi - başlanğıcı (yaranma tarixi) olur, sonu olmur.***

***Yaxşı şeir hər oxuyanla yaşayır. Böyükağa Qasımzadənin döyüşdə yazılan, qələbəyə səsləyən, döyüşlərdən uzaqlarda olanları qələbəyə kökləyən "Hücum nəğməsi" şeiri kimi...***



74 il əvvəl yazılmış bir şeir misra-misra düşüncələrimin şahənşahına dönüb könlümü tələndirməkdədi. Nədi bunun sirri? Bunun sehri nədi? Təkcə məzmunmu? Təkcə aşıladığı bədii fikirmi? Yox, zamanında oxuduğum bu şeirin təqdimini - üslubunu da, üstünə yad işığı düşməyən bədii fikirlərini də, ruhumuzun zərrəsi kimi düşüncələrimdən ürəyimə köçən misralarını da (bütövlükdə şeiri) daha təsirli, daha munis, daha doğma bildim.

Böyük Vətən müharibəsində Azərbaycan şeiri də döyüşçüydü. Azərbaycan şeiri də döyüşürdü. Azərbaycan şeirinin hər misrasında səfərbəredici güc vardı. Xalqın istəyi kimi oxunurdu, xalqın istəyi kimi dərk edilirdi. İsa ismayılzadənin bir misrası düşür yadıma: "Dava kəndimizdən uzaq olsa da, Dava kəndimizin içindən keçib...". Döyüşlər uzaqda olsa da, müharibə Azərbaycanın da içindən keçirdi. Şairlərimiz o illərin tarixini şeirə gətirirdi. Döyüşən şairlərimizin də, döyüşlərdən uzaqda olan şairlərimizin də şeirləri döyüşçülərin (Azərbaycanlı döyüşçülərin!) qələbə əzminin ruh qardaşıydı.

Böyükağa Qasımzadə hərbçiydi. Özü də döyüşürdü, sözü də. Şairin ürəyi də qələbəyə köklənmişdi, sözü, şeirləri də. "Hücum nəğməsi" şeirini şair Böyükağa Qasımzadəyə (1942) hansı duyğular yazdırıb? "Azərbaycan", "Çağırış", "Xoşbəxtlik nəğməsi", "Vətən sevgisi", ... kimi şeirlərin zəmanətiylə birmənalı şəkildə deməliyik: Vətən sevgisi. Genişlənən müharibənin hər ayı, hər günü neçə-neçə azərbaycanlı döyüşçünün də ömrünü alırdı. Genişlənən müharibə Azərbaycana da sədəmə toxundura bilərdi. Elə buna görə də milli ruhun harayını yaşam fəlsəfəsi bilən şairin düşüncələrindən bir hücum istəyi, hücumun nəticəsi kimi qələbə istəyi dikəlirdi...

...Azərbaycanda elan edilməmiş müharibə davam etməkdədi; müharibə torpaqlarımız işğaldan azad ediləndə başa çatacaq. "Hücum nəğməsi" şeiri 1942-ci ildə faşizmə qarşı yazılsa da, poetik təhkiyyəsiylə çağdaşımızdı; şeir döyüşçülərdən onda da hücum, zəfər istəyirdi, indi də bunu istəyir. Onda bunu şairin özü istəyirdi, indi ruhu istəyir. Bu hücum Qarabağımızın işğaldan qurtuluşuna görə olmalı hücumdu.

*Hücum! Mərd igidim, qeyrət çağıdır,*
*Sizi döyüşlərə çağırır Vətən!*

misralarında aprel döyüşlərini, bu döyüşlərin nəticələrini görürəm. 74 il əvvəl yazılmış şeirin yaşarılığı budur! Elə bil Lələtəpə zəfərindən az sonra yazılıb...

Bu gün "Sinələri sipər eləyək" ki, "Vətən azad nəfəs alsın" istəyinə köklənmişik. Misralarda min illərin o üzündən dikələn döyüş əzmi, döyüş ruhu sezilir, duyulur, görünür: müharibədə torpaq da yaralanır. Bu yaraları son döyüşün zəfəri sağalda bilər. Torpağın yaraları sağalırsa, təbiətin eyni açılır. Bu məqam şeirdə poetik biçimdə verilib:

***İrəli, qardaşım, gülsün təbiət,***
***Bizimdir gələcək, bizimdir zəfər!***

Şair inamıdı...

Aprel döyüşlərində məhz bu inamın ovqatını yaşadıq. Bu inamı Böyük Qələbədə daha əzəmətlə yaşayacağıq. Bunu bizə "Hücum nəğməsi" kimi şeirlərin ruhunun işığında əsgərlərimiz yaşadacaq!..

O ruhun işığında "Hücum nəğməsi"ni əsgərlərimizə söz qardaşı bildim və "Əsgərlərimizin söz qardaşı"nı yazdım:

*Əsgərlərimizin söz qardaşı*
*Şair Böyükağa Qasımzadəyə*

*Sözün əsgəriydin...*
*Söz əsgəri tək*
*Ömrü zərrə-zərrə sözə verirdin.*
*Döyüş səngərini Vətən bilərək,*
*Sözün istisini közə verirdin.*

*Tarix yazırdınız!*
*Şeirlərinlə*
*Belə hökm edirdin özün tarixə.*
*Özün vətəndaşlıq şeiri idin,*
*Şirin şeir oldu sözün tarixə.*

*O vaxtlar özünə qardaş bilirmiş*
*Zabit də, əsgər də, deyirlər səni.*
*Şeir də qüdrətdi...Yaşadacaqdır,*
*Tarixdə yazdığın şeirlər səni!..*

*Şeir səmasında o illərdə sən*
*Görünən Ay oldun, gələn dan oldun.*
*Zabit mundirində illər yaşadın,*
*Yazı masasında*
*komandan oldun!..*

*Sənin şeirlərin!..*
*Şeirlərinlə*
*könüllərə köçdü könlünün səsi.*
*Bu gün əsgərlərin söz qardaşıdı,*
*O vaxtlar yazdığın*
*"Hücum nəğməsi!.."*

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

*Düşüncələr*

# Uşaqların qəhrəmanları

***Uşaqlığımda nağılları mən də sevirdim. Nənələrimin danışdığı nağılları həvəslə dinləyərdim. Məlik Məmmədin, Ağ Atlı Oğlanın, Elşənin, ... igidliyi məni də valeh edərdi. Xalqın ağır günündə, çətin vaxtlarında şərə, qəddarlığa, zülmə qılınc sıyıran bu qəhrəmanlar yüz illərlə böyüklərin də, uşaqların da ümid yeri, güvənc yeri olub.***

Böyüdük. Onların nağıl qəhrəmanları olduğunu dərk elədik. Ancaq onlara sevgimiz azalmadı...

Ermənistan Azərbaycandan torpaq iddiasına düşdü. Elan olunmayan müharibə başladı. Vətəni sevən oğullar döyüşlərə getdi. İgidliklə döyüşdü. Neçəsi şəhid oldu...

Döyüşçülərimiz şəhidliyiylə təsdiqlədi ki, torpaq qorunanda vətənləşir. Bu amalla yaşayan, torpaqlarımızı bu amalla müdafiə edən, səngərlərdə bu amalla dayanan, düşmənin həmlələrinin qarşısını alan, bu amalla döyüşən, bu amal naminə şəhid olan əsgərlərimiz bizim real qəhrəmanlarımızdır.

Murad ("Ağ atlı oğlan") çoxumuzun film qəhrəmanımız oldu. Birinci Qarabağ savaşında neçə-neçə Murad döyüşçülərimizin sırasındaydı. Neçəsini ailələrinə göndərmişdilər, yenidən qayıtmışdı. Haradan oxuduğumu unutmuşam: Tovuzun Əlibəyli kəndində jurnalist 13-14 yaşlı uşaqdan soruşur: "Səni bura nə gətirib? Təhsilini yarımçıq qoyubsan...". Uşaq qətiyyətlə "Mənim yolum budur. Torpaq, sonra təhsil..." deyir.

Qardaşım Kənan altıncı sinifdə oxuyur. Anam ona nağıl danışmırdı, döyüşlərdən, döyüşçülərdən danışırdı. Kənan üçün Məlik Məmməd, Ağ Atlı Oğlan, Elşən ... Yusif Mirzəyev oldu, Vəzir Orucov oldu, Koroğlu Rəhimov oldu, Mübariz İbrahimov oldu, ... Kənan bu qəhrəmanları sevdi, onların niyə şəhid olduğunu dərk elədi. O da bildi ki, o da inandı ki, oğul Vətən naminə döyüşər, Vətən naminə şəhid olar...

Uşaqların qəhrəmanları Lələtəpədə döyüşən, Lələtəpəni düşmənlərdən azad edən əsgərlərdi...

Uşaqların qəhrəmanları torpaqlarımızı qoruyan, səngərdə dayanan, Ali Baş Komandanın əmrini gözləyən əsgərlərimizdi...

**Şəbnəm BEHBUDZADƏ**

Mayor Yunusov Vaqif Rəcəb oğluna 2003-cü ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş leytenant Cəfərov Anar İntiqam oğluna 2011-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Leytenant Paşabəyli Orxan Qiblə oğluna 2015-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 374
Nüsxə 4720